# "Azərbaycanın MDB məkanında fəallığı ölkəmizin xarici siyasət xəttinin tərkib hissəsidir"

**Azərbaycan üzv olduğu bütün beynəlxalq təşkilatların ən fəal üzvlərindəndir. Prezident İlham Əliyevin istər qlobal, istərsə də regional müstəvilərdə keçirilən tədbirlərdə irəli sürdüyü təkliflər dünya ictimaiyyəti tərəfindən maraqla qarşılanır. Dövlətimizin başçısının təşəbbüsləri beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanır, ölkələrin və xalqların hüquqlarına hörmət olunmasına, ümumiyyətlə, bəşəriyyətin üzləşdiyi problemlərin həllinə xidmət edir. Prezident İlham Əliyev hər zaman dünyada haqqın, ədalətin tərəfdarı olub və milli maraqlarımızı üstün tutub.**



Bakı Dövlət Universitetinin kafedra müdiri, professor Kamilə Əliyeva "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, Prezident İlham Əliyevin Tacikistan lideri Emoməli Rəhmonun dəvətilə Düşənbəyə səfərini, səfər çərçivəsində keçirdiyi ikitərəfli və çoxtərəfli görüşləri, eləcə də MDB Dövlət Başçıları Şurasının iclasındakı çıxışını dövlətimiz və xalqımız üçün çox əlamətdar hadisə kimi qeyd etmək olar: "Tacikistanda baş tutan görüşlərdə də ölkəmizin başçısının böyük lider, qətiyyətli, siyasi iradəyə malik şəxsiyyət, güclü siyasətçi olduğunun şahidi olduq. Ötən ilin dekabrında Qroznı üzərində təyyarəmizin Rusiya hərbçiləri tərəfindən vurulması çoxsaylı insan tələfatı ilə nəticələnmişdir. Baş vermiş hadisə ilə bağlı dövlətimizin başçısı Rusiya Federasiyasına qeyri-konstruktiv mövqeyinə görə qəti etirazını bildirmişdi. Bu qətiyyətli mövqedən sonra Düşənbədə Rusiya Prezidenti Vladimir Putinin İlham Əliyevlə görüşdə Azərbaycan tərəfinin haqlı tələblərini qəbul etməsi heç də təsadüfi sayılmamalıdır".

Ekspert qeyd edib ki, MDB Dövlət Başçıları Şurasının iclasında çıxış edən Prezident İlham Əliyev Azərbaycanın quruma üzv dövlətlərin hər biri ilə istər çoxtərəfli, istərsə də ikitərəfli formatda əlaqələrinin yüksək səviyyədə olduğunu vurğulayıb. Bildirilib ki, Azərbaycan MDB-yə üzv dövlətlərin hər biri ilə siyasi, iqtisadi əlaqələrin yüksəlməsinə xidmət edən siyasət həyata keçirir.

Azərbaycanın MDB platformasında fəallığının ölkəmizin xarici siyasət xəttinin tərkib hissəsini təşkil etdiyini deyən K.Əliyeva vurğulayıb ki, son dövrlər MDB məkanında Azərbaycanın rolu bütün sahələrdə artmaqdadır: "Bu baxımdan Prezident İlham Əliyevin Tacikistan səfəri iqtisadi tərəfdaşlıqla yanaşı, təhlükəsizlik baxımından da çox önəmlidir. Tacikistanda keçirilən MDB Dövlət Başçıları Şurasında bir daha şahidi olduq ki, bu nüfuzlu platformada da Azərbaycan seçilən dövlətdir".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***





Azərbaycan.- 2025.- 15 oktyabr (№221).- S.4.